Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər : | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Rəsmi opponentlər: | AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor<br>**Nüşabə Həmid qızı Araslı** |
| | Filologiya elmləri doktoru, professor<br>**Mehdi Davud oğlu Kazımov** |
| | Filologiya elmləri doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>______________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi:<br>______________________ | Filolologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri:<br>______________________ | Filologiya elmləri doktoru, professor<br>**Tərlan Aslan oğlu Quliyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Uzun bir təkamül yolu keçən farsdilli poeziya XIX yüzillikdə öz inkişafının ən mürəkkəb dövrlərindən birini arxada qoymuşdur. Hazırkı tədqiqat işi bu dövrün ədəbiyyatının tərəqqi yoluna qədəm qoymasında bilavasitə rolu olan türksoylu Qacarlar sülaləsinin ikinci hökmdarı Fətəli şah Qacarın və bu sülaləyə mənsub şahzadələrin poetik irsinin araşdırılmasına həsr olunmuşdur.

Ötən iki yüz ildə xalqımızın taixində yaşanan ən böyük problemlərdən biri də tarixi Azərbaycan torpaqlarının parçalanması və bu parçalanmadan qaynaqlanan məsələlər nəticəsində bir çox soydaşlarımızın adının keçmişin qaranlıq səhifələrinə gömülməsi, onların adı və fəaliyyətinin Azərbaycan elminin diqqətindən kənarda qalması olmuşdur.

XX əsrin sonlarında ölkəmiz dövlət müstəqilliyinə nail olduqdan sonra tarix və mədəniyyətimizin, eləcə də ədəbiyyatımızın yeni və milli prizmadan tədqiq edilməsi əhəmiyyət kəsb etmişdir. Hazırkı tədqiqat işi Azərbaycan xalqının siyasi tarixində silinməz iz qoymuş Qacarların Azərbaycan ədəbiyyatşünaslığının diqqətindən kənarda qalan bədii irsinin milli dəyərlərimiz işığında öyrənilməsi baxımından aktualdır.

Sadalanan fikirlərin yekunu olaraq mövcud dissertasiya işinin Azərbaycan ədəbiyyatşünaslığı üçün bu baxımdan aktuallığını qeyd etmək olar:

1. Xalqımızın qüdrətli soylarından olan Qacarların ədəbi-bədii irsinin ilk dəfə sistemli şəkildə araşdırılması;
2. Ötən yüz ildən artıq müddətdə mədəniyyət və ədəbiyyat tariximizə adları düşməyən tarixi şəxsiyyətlərin bədii irsinin üzə çıxarılması, öyrənilməsi və təbliği;
3. Qacarlar sülaləsinə mənsub şair və ədiblərin yaradıcılığının farsdiili Azərbaycan ədəbiyyatının tərkib hissəsi kimi tədqiqata cəlb edilməsi.

Mövzunun ədəbiyyatşünaslıq baxımından aktuallığını şərtləndirən cəhətlərdən biri də tədqiqata cəlb edilən şairlərin bədii irsinin Qacarlar dövrü poeziyasının əsas ilham mənbəyi olan klassik poeziya ustadlarının, o cümlədən Xaqani və Nizami kimi dahi şairlərin yaradıcılığı ilə müqayisəli kontekstdə təhlil edilməsidir.

Ölkəmizdə Fətəli şah Qacarın və Qacar şahzadələrinin bədii irsinin tədqiqi ilə bağlı demək olar ki, heç bir tədqiqat işi həyata keçirilməmiş, Qacarlar dövrü və bu sülaləl追yə mənsub görkəmli şəxsiyyətlər əsasən tarixi aspektdə öyrənilmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu dövrün tarixi-siyasi mənzərəsi fərqli bir baxış bucağından araşdırılmış, ilk dəfə olaraq Qacarlar nəslinin nümayəndəsi olan akademik Çingiz Qacarın (1929-2021) əsərlərinin işıq üzü görməsi ilə Qacarlar haqqında həqiqətlərin xalqımıza çatdırılması yolunda ilk addımlar atılmışdır.[1] Tanınmış publisist-nasir, hərbi jurnalist Şəmistan Nəzirlinin, tədqiqatçı-filoloq Ədalət Tahirzadənin, Rusiyada yaşayan soydaşımız tarixçi alim Eldar İsmayılovın araşdırmaları da Qacarlar haqqında cəmiyyətimizdəki yanlış düşüncələrin aradan qaldırılması sahəsində həyata keçirilmiş uğurlu işlərdəndir.[2]

Uzun illər Qacarlar dövlətinin diplomatı olan Həsən xan Pakrəvanın ailəsində dünyaya gəlmiş və Avropada təhsil almış iranlı yazar Əminə Pakrəvanın (1880-1958) əsərləri Qacarlar dövlətinin tarixinə işıq salan qiymətli mənbələrdir.[3]

---

[1] Каджар, Ч. Выдающиеся сыны древнего и средневекового Азербайджана. Баку: Азербайджан, - 1995. - 392 с..; Каджар, Ч. Каджары. Баку, - 2001.

[2] Nəzirli, Ş. Arxivlərin sirri açılır. / Ş. Nəzirli. - Bakı: Elm, -1999.- 384 s.; Tahirzadə, Ə. Ağa Məhəmməd şah Qacar (Tərcümeyi-hal oçerki). / Ə. Tahirzadə. - Bakı: Kür, -2002.-44 səh.; Исмаилов Э.Э. Персидские принцы из дома Каджаров в Российской империи. Москва: Старая Басманная, - 2009.- 524 с.

[3] Pakrəvan, Ə. H. Abbas Mirzə və Azərbaycan. / Farscadan çev.: G. Gəncalp.- Bakı: Qanun, - 2007. – 208 s.;

پاکروان، امینه. عباس میرزا و فتحعلی شاه (نبرد های ده ساله ایران و روس). / ترجمه: صفیه روهی./ تهران، نشر تاریخ ایران. 1376. ص 406

پاکروان، امینه. آقا محمد خان قاجار./ ترجمه: جهانگیر افکاری./ تهران: انتشارات جامی . 1377. 300 ص.

Son illərdə publisist-yazar, jurnalist-etnoqraf Ənvər Çingizoğlunun tədqiqatları Qacarlar dövrünün siyasi-ictimai mənzərəsinin öyrənilməsində mühüm rol oynayır.[4]

Tarix elmləri doktoru Tahirə Həsənzadənin Qacar sülaləsinin görkəmli şəxsiyyətlərinə həsr edimiş monoqrafik əsərləri, həmçinin həyata keçirilmiş tərcümə işləri də ölkəmizdə qacarşünaslığı zənginləşdirməyə xidmət edir.[5]

Eyni zamanda Qacarlar dövrünün ədəbi mühiti ilə ətraflı tanış olmaq üçün bu sahəni müxtəlif aspektlərdən araşdıran müasir azərbaycanlı alimlərlə yanaşı, iranlı tədqiqatçılardan Z. Səfa, Ə. Zərrinkub, Y. Ariyanpur, M. Bamdad, Ə. Şəmim, S. Nəfisi, Ə. Kəsrəvi, Z. Mötəmen, İ. Səfayi, Ə. M. Səlimi, M. Ş. Kədkəni, H. Gülməhəmmədi, M. Bahar, M. Həmidi, A. Əmanət, A. Əşrəf, Avropa, rus və türk alimlərindən Y. Ripka, R. G. Vatson, E. G. Braun, V. Fişer, S. C. Malkolm, İ. P. Petruşevski, İ. S. Braginski, Y. E. Bertels, M. S. İvanov, M. F. Köprülü, A. N. Tərlan, B. N. Təcrübəkar və digərlərinin sanballı monoqrafiya və elmi əsərləri böyük əhəmiyyət daşıyır.

---

[4] Çingizoğlu, Ə. Dəvəli Qacarlar . Bakı: Mütərcim, -2018.-184 s.; Çingizoğlu, Ə. Qacar və Qacarlar kəndi. Bakı: Şuşa, -2008. -334 s.; Çingizoğlu, Ə., Qacar M. Qacarlar dövrünün diplomatları. Bakı: Mütərcim, -2014.- 240 s.

[5] Həsənzadə T. XVIII-XIX əsrlərdə Azərbaycanda yaşamış görkəmli ictimai-siyasi xadimlər (Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında). / T. Həsənzadə.- Bakı: Nurlan, - 2007.- 320 s.; Həsənzadə, T. Qacarlar dövrünün titulları. / T. Həsənzadə.- Bakı: Elm və təhsil, - 2011.- 384 s.;

Etimadüssəltənə, Marağalı Məhəmmədhəsən xan. Xeyrati-hesan (Gözəllər sərvəti). / Fars dilindən tərc., ön sözün və qeydlərin müəllifi: - T. Həsənzadə. - Bakı: Nurlan, - 2009.- 150 s.; Fərhad Mirzə Qacar. Səfərnamə. / Fars dilindən tərc.: T. Həsənzadə. Bakı: Elm və təhsil, -2017.- 426 s.; Qacar, Şahzadə Nadir Mirzə. Təbriz Darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri. / Tərc. ed. Hacı Rauf Şeyxzamanlı, red. N. Göyüşov. - Bakı: Elm, -2019. – 564 s.; Pənahi-Semnani, M. Fətəli şah Qacar. / Fars dil. tərc.ed.: P. Kərimov. - Bakı: Şuşa, - 2006. - 256 s.;
Ramazani, A. Fətəli şah Qacar. /Fars dil. tərc. ed.: Böyük Mollayi. Red. və ön sözün müəllifi: Ə. Çingizoğlu. - Bakı: Mütərcim, - 2015. - 156 s.

Tədqiqat işinin ədəbiyyatşünaslıq problemləri cəhətdən öyrənilməsində azərbaycanlı alimlərdən H. Araslı, M. C. Paşayev, Ə. Cəfər, N. Qarayev, Ə. Mirəhmədov, A. Rüstəmova, N. Araslı, R. Hüseynov, M. Quliyeva, T. Quliyev və b. alimlərin elmi əsərlərinə istinadlar edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Fətəli şah Qacarın "Divani-Xaqan" adlı şeir külliyatına daxil olan qəsidə, qəzəl, qitə, məsnəvi və rübailərinin, eyni zamanda Qacar sülaləsinə mənsub şair və ədiblərin ədəbi-bədii irsidir.

Çoxşaxəli yaradıcılığa malik olan Fətəli şahın və onun nəslindən olan şahzadə şairlərin zəngin poetik irsinin tədqiqi isə dissertasiya işinin predmetini təşkil edir.

Dissertasiya işində Fətəli şahla yanaşı onun müasiri olan Səba Kaşani, Nişat İsfahani kimi saray şairlərinin, ədəbi fəaliyyətlə məşğul olan digər Qacar şahzadələrinin də bədii irsi tədqiq edilmiş, yaradıcılıqlarından nümunələr verilmişdir.

Fətəli şah Qacarın divanının filoloji tədqiqi İran Milli Kitabxanası nəzdində İran Milli Arxivləri və Kitabxanasının Rəqəmsal Qaynaqlar Sistemində mühafizə edilən 1859-cu (h.q. 1275) ildə Tehranda çap edilmiş daşbasma nüsxəsi (217 səh., inventar kodu: 780561) əsasında həyata keçirilmişdir. Apardığımız tekstoloji müqayisələr zamanı bu nüsxənin "Divani-Xaqan"ın ən mükəmməl variantı olduğu məlum olmuşdur. Həmin nüsxədəki bəzi naqisliklər səbəbindən tədqiqat zamanı istifadə etdiyimiz digər mənbələr "Divani-Xaqan"ın İran Milli Kitabxanasının əlyazmalar fonduna məxsus h.q.1239/m.1824-ci il tarixli (294 səh., inventar kodu: 816098) və İran Məclis Kitabxanasının Muzey və Sənədlər mərkəzində 61922 şifrəsi ilə saxlanılan 212 səhifəlik əlyazma nüsxələridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində aşağıdakı məqsəd və vəzifələrin həyata keçirilməsi planlaşdırılmışdır:

- Qacarlar sülaləsinin hakimiyyəti dövrünün ədəbi-tarixi mənzərəsinin işıqlandırılması;
- Qacarlar sülaləsinin ikinci hökmdarı Fətəli şah Qacarın həyat və yaradıcılığının, dövrünün qısa tarixçəsinin verilməsi, mühüm ictimai-siyasi və ədəbi-mədəni

proseslərə və müasiri olan ədəbi şəxsiyyətlərin həyat və fəaliyyətinə nəzər salınması;

- Fətəli şahın şeir divanının struktur və tərtib, üslub və janr, vəzn və qafiyə xüsusiyyətlərinin araşdırılması;
- Fətəli şahın yaradıcılığının ideya-məzmun xüsusiyyətlərinin və bədii-estetik özəlliklərinin təhlil edilməsi;
- Qacarlar sülaləsinə mənsub olan şahzadələrin poetik irsinin araşdırılması;
- Fətəli şah Qacarın bədii yaradıcılıqla məşğul olan həyat yoldaşlarının və qızlarının müəyyənləşdirilməsi və onların bədii irsinin nəzərdən keçirilməsi;
- Mövzunun tədqiqat obyekti olan şairlərin bədii irsinin farsdilli klassik Azərbaycan ədəbiyyatı ilə müqayisəli şəkildə öyrənilməsi;
- Qacar şahzadələrinin qələmə aldığı tarixi əsərlər, salnamə və təzkirələrin Azərbaycan tarixi üçün də qiymətli mənbələr olduğunun aşkarlanması;
- Fətəli şahın və Qacar şahzadələrinin, eləcə də saray qadınlarının yaradıcılığından nümunələrin Azərbaycan dilinə tərcümə edilməsi;
- Fətəli şah Qacarın və Qacar şahzadələrinin XIX yüzillik Azərbaycan ədəbiyyatında yerinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını Azərbaycan, İran, Türkiyə, Rusiya və Avropa alimlərinin mövzu ilə bağlı apardıqları araşdırmaların əsas müddəaları təşkil etmiş, işlənmə metodu tarixi-müqayisəli təhlil prinsipinə əsaslanmışdır.

Dissertasiya işi Fətəli şah Qacarın farsca divanının tədqiq və təhlili əsasında yazılmış, Qacarlar dövründə qələmə alınmış mühüm təzkirə və tarixi əsərlərdən, əlyazma nüsxələrindən, son əlli ildə mövzu ilə bağlı meydana çıxmış elmi əsərlərdən də istifadə edilməklə dövrün ədəbi-bədii mənzərəsi mümkün qədər əhatəli şəkildə işıqlandırılmışdır.

Tədqiat zamanı toplanmış materiallar sistemli şəkildə tədqiq və təhlil edilmiş, aparılmış ümumiləşdirmələr əsasında sonda əldə olunan elmi nəticələr verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işi əsnasında aşağıdakı müddəalar əsaslandırılmışdır:

- Qacarlar sülaləsinin görkəmli şəxsiyyətləri nəinki Azərbaycanın ictimai-siyasi və hərb tarixinin, həm də mədəniyyət və ədəbiyyat tarixinin zənginləşməsində mühüm rol oynamışlar.
- Qacarlar sülaləsinin ikinci hökmdarı Fətəli şah Qacar siyasi idarəçiliklə yanaşı, ədəbi fəaliyyətlə də məşğul olmuş, özündən sonra fars dilində yazılmış şeir divanı qalmışdır.
- Fətəli şah Qacarın "Divani-Xaqan" adlı şeir divanı klassik ədəbi ənənələr əsasında tərtib edilmiş şeir toplusudur.
- Divanın müxtəlif əlyazma, daşbasma və çap nüsxələri nəzərdən keçirilərkən Fətəli şahın farscadan başqa Azərbaycan türkcəsində yazılmış şeirləri olduğu da müəyyən edilmişdir.
- Apardığımız araşdırma nəticəsində məlum olmuşdur ki, çağdaş salnamə və təzkirələrdə yüzdən artıq şairlik istedadı olan Qacar şahzadələrinin adı çəkilir. Dissertasiya işində otuzadək şahzadə şairin poetik irsi tədqiqata cəlb edilmişdir.
- Fətəli şahın böyük hərəmxanası olmuş, onun sarayında yaşayan qadınlar arasında bir neçəsi şeir yazmaqla məşğul olmuşdur. Mənbələrdə Qacar sarayının iyirmiyədək şairəsinə işarə edilmiş, tədqiqat işində onlardan bəzilərinin həyat və yaradıcılığından bəhs edilmişdir.
- Qacar şahzadələrinin əksəriyyəti nəsr yaradıcılığı ilə də məşğul olmuş, dövrün tarixi-ədəbi mənzərəsini işıqlandıran qiymətli tarixi-xronoloji və bədii əsərlər yazmışlar.
- Qacarlar dövründə indiyədək Azərbaycan ədəbiyyatı tarixinə adları məlum olmayan və ya yaradıcılığı ədəbiyyatşünaslığımızda qismən araşdırılan çoxlu sayda azərbaycanlı şair yaşayıb yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Fətəli şah Qacarın və Qacar şahzadələrinin yaradıcılığı araşdırılmış, onların bədii irsindən nümunələr tərcümə və təhli edilmişdir.
- Divanın müxtəlif əlyazma, daşbasma və çap nüsxələri nəzərdən keçirilərkən Fətəli şahın farscadan başqa Azərbaycan türkcəsində yazılmış iki qəzəlinin, iki rübaisinin və bir neçə müfrəd (tək) beytlərinin olduğu müəyyən edilmişdir.
- Qacar şahzadələrinin (Nasirəddin şah və İrəc Mirzə istisna olunmaqla) poetik irsinin hətta iranlı tədqiqatçıların[6] da nəzər-diqqətindən kənarda qaldığını nəzərə alsaq, bu araşdırmanın ədəbiyyatşünaslıq sahəsində yenilik olduğu qənaəti yaranır.
- Dövrün ədəbi mənzərəsi araşdırılarkən yalnız farsdilli şairlərə deyil, Azərbaycan türkcəsində yazan cənublu soydaşlarımızın da bədii irsinə diqqət yetirilmişdir. Bu dövrdə anadilli ədəbiyyatımızın öz inkişafından geri qalmamasının əsas amillərindən biri məhz Qacarların öz soy-köklərinə bağlılığı olmuşdur. Fars dili ilə yanaşı həm də öz ana dillərində bədii yaradıcılıqla məşğul olan bu şairlərin əksəriyyətinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında araşdırılmamışdır.
- Qacarlar dövründə saray qadınlarının bədii yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir.
- Qacar şahzadələrinin nəsr yaradıcılığı da araşdırılmış və onların müəllifi olduqları bir sıra təzkirə, salnamə, elmi-bədii əsərlərin Azərbaycan və Qafqaz tarixi, coğrafiyası və etnoqrafiyası üçün mühüm qaynaqlar olduğu müəyyən edilmişdir.

---

[6] واحددوست، مهوش. ادبیات ایران در دوره ی قاجاریه. تهران: انتشارات سروش. 1396. ص 23

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** XIII yüzillikdən etibarən ana dilində yaranmağa başlayan milli ədəbiyyatımızın formalaşmasında mühüm rol oynamış klassik Şərq poeziyası ilə vahid müstəvidə öyrənilməsi baxımından Qacarlar dövrü ədəbiyyatının tədqiq edilməsi əhəmiyyət daşıyır və ədəbiyyatşünaslıq elminin araşdırılması vacib olan istiqamətlərindən biridir. Tədqiqat işi mövzunun aktuallığı və əldə olunmuş nəticələr baxımından da klassik Azərbaycan ədəbiyyatının tədqiq və öyrənilməsində elmi-nəzəri əhəmiyyətə malikdir.

Mövzunun tədqiqat obyekti olan Fətəli şah Qacarın və digər şairlərin yaradıcılığı Şərq poeziyasının Firdovsi, Xaqani, Sədi, Hafiz, Nizami, Əttar və Rumi kimi dahi ustadlarının bədii irsi ilə əlaqəli şəkildə araşdırılmışdır ki, bunun da dissertasiyanın klassik poeziyanın tədqiq və öyrənilməsi ilə məşğul olan gələcək tədqiqatçılara faydalı olacağını düşünürük.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin əsas elmi müddəaları Azərbaycan Respublikası Ali Attestasiya Komissiyyası tərəfindən təsdiq edilmiş müvafiq dövri eimi nəşrlərdə və xaricdə beynəlxalq indeksli jurnallarda məqalə və tezis şəklində dərc edilmiş, respublika və beynəlxalq elmi konfrans və simpoziumlarda məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi" şöbəsində yerinə yetirilmiş və müzakirə edilmiş, muzeyin Elmi Şurası tərəfindən müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi.** Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq məqsədilə təqdim edilmiş bu dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi "Giriş" (19. 661 şərti işarə), I fəsil (105.069 şərti işarə), II fəsil (71.585 şərti işarə), III fəsil (76.630 şərti işarə) və "Nəticə" (13.571 şərti işarə) daxil olmaqla 286.516 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işin tədqiq tarixi, obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, elmi yeniliyi və metodoloji bazası, elmi və nəzəri əhəmiyyəti haqqında məlumat verilmiş, aprobasiyası, həcmi və strukturu müəyyən edilmişdir.

Dissertasiya işinin I fəsli **“Qacarlar sülaləsi dövründə ədəbi-mədəni mühit”** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsildə 240 ilədək hakimiyyətdə olan Səfəvilər sülaləsinin süqutundan (1732) Qacarların siyasi hakimiyyətə gəldiyi dövrədək (1779), təqribən yetmiş illik bir zaman kəsiyində dövrün ədəbi mənzərəsi, Fətəli şahın hakimiyyətə gəlməsi (1797) ilə yeni nəfəslə canlanan ədəbi mühit, XIX yüzilliyin ən mühüm ədəbi hadisəsi olan “Əncüməni-Xaqan” məclisi, bu dövrün məşhur ədəbi simaları, Fətəli şahın saray şairləri və onların ədəbi fəaliyyəti nəzərdən keçirilir.

Birinci fəslin “**Səfəvilərin süqutundan Fətəli şah Qacaradək olan dövrdə ədəbi böhran**” adlanan ilk paraqrafında Səfəvilər dövrü poeziyasının səciyyəvi cəhətləri öyrənilmiş, farsdilli poeziya ilə türkdilli poeziya arasında müqayisələr aparılmış və göstərilmişdir ki, Səfəvilər dövründə farsdilli poeziyanın “hind üslubu” adlanan yeni inkişaf mərhələsi başlanmış, zaman keçdikcə bu üslubun mürəkkəb şeir texnikasından qaynaqlanan bədii nümunələri farsdilli poeziyanı tənəzzülə doğru aparmışdır. Bu dövrün tədqiqatçıları *“Əbdürrəhman Camini fars poeziyasının son böyük şairi”* hesab edir, ondan sonra şeir aləmində yaddaqalan şəxsiyyətlərin yetişmədiyini söyləyirlər.[7] Bunu daha çox şairlərin fars dilinin işlək olduğu ərazilərdən uzaq Hindistan saraylarına yollanmaları ilə izah edirlər. Hind üslubunun yayılmasından sonra fars şeirinin tədqiqatçılar tərəfindən *“inhitat”* və ya *“rükud”* adlandırılan durğunluq dövrü başlanmışdır.[8]

---

[7] Browne, E. G. The literary history of Persia. [in four volumes]- Cambridge: University Press. - V.1.-1969. - 521 p., p. 26; Бертельс, Е. Э. Избранные труды. Навои и Джами. Москва: Восточная литература, - 1965.- Т. 4.- 499 с., с. 273.

[8] آریانپور، یحیی. از صبا تا نیما. در سه جلد. تهران. انتشارات زوار. 1373. ج 1، ص 12-8.

Bu dövrdə farsdilli poeziya türkdilli poeziya ilə müqayisədə daha zəif şəkildə özünü göstərir, həm saraylarda, həm də saray mühitindən kənarda türk dilində yazılmış dəyərli ədəbi nümunələr nəzərə çarpır. Səfəvilər sülaləsinin türkəsilli olması və Şah İsmayıl Xətainin dövründə türk dilinə verilən dəyər poeziyaya da öz təsirini göstərir. Şah İsmayılla yanaşı bu dövrdə türk dilində yazan Kişvəri, Həbibi, Süruri, Tüfeyli, Sultan Türkman kimi şairlər də olmuş, Sah Təhmasib və Şah Abbas kimi Səfəvi sultanlarının da şeirlər yazması məlumdur. Doğma vətəninin hüdudlarından uzaqlarda bütün türk dünyasının fəxr etdiyi dahi Məhəmməd Füzuli də üç dildə yazdığı əsərləri ilə Səfəvilər dövrünün ən görkəmli şairlərindən hesab edilir. Farsdilli poeziyaya gəldikdə isə Səfəvilər zamanının ən məşhur ədəbi simalarından olan və bu dövrün "Hafiz"i adlandırılan Saib Təbrizi klassik Şərq poeziyasının məhsuldar nümayəndəsi olmuş, farsca ilə yanaşı Azərbaycan türkcəsində də qəzəllər yazmışdır. *"Elm və fəzilət sahibi olan Səfəvi xanədanı sənətə yüksək dəyər verir, ədəbiyyatın rəvacına zəmin yaradırdılar."*[9]

Anadilli ədəbiyyatımızın inkişafında çox mühüm bir mərhələ təşkil edən Səfəvilər dövrü poeziyasının səciyyəvi cəhətlərindən biri dini-fəlsəfi mövzularda yazılmış şeirlərə üstünlük verilməsi və hökmdarların tərifinə həsr olunan mədhiyyəçiliyin öz aktuallığını itirməsidir.

Səfəvilərin süqutu, əvvəlcə Zənd, sonra Əfşar və nəhayət Qacar sülaləsinin siyasi hakimiyyətdə bir-birini əvəz etdiyi XVIII əsr farsdilli poeziyanın ən acınacaqlı bir dövrüdür. *"Səfəvilərin şiəlyi öz hakimiyyətlərinin ideoloji dayağına çevirməsi və bununla əlaqədar dini ədəbiyyata xüsusi diqqət göstərməsi farsdilli poeziyanın da taleyinə ciddi təsir göstərdi."*[10] Bütövlükdə ədəbi-mədəni mühitdə Azərbaycan türkcəsinin üstün mövqeyi farsdilli poeziyada çökmə prosesini sürətləndirmiş, bu proses Səfəvilərin dövründə də davam

---

[9] نعمانی، شبلی. شعرالعجم یا تاریخ شعرا و ادبیات ایران. مترجم: سید محمدتقی فخرداعی گیلانی. در 5 حلد. جلد سوم. تهران: انتشارات دنیای کتاب. 1363، ص 6

[10] Məhəmmədi, M. Saib Təbrizi və farsdilli poeziyada "Hind üslubu". / M. Məhəmmədi.- Bakı: Elm, - 1994.- 187 s., s. 38

etmiş  və onların süqutu ilə ədəbi-mədəni mühitdə yaranmış durğunluq ən yüksək həddə çatmışdı.

Dissertasiyanın I fəslinin II paraqrafı  "**Qacarlar dövrünün tarixi-ədəbi mənzərəsi**" adlanır və üç paraqrafdan ibarətdir. Rəsmi hakimiyyət dövrü 125 il, bütövlükdə isə 136 ilədək siyasi səhnədə olan Qacarlar sülaləsinin hakimiyyət illərində fars ədəbiyyatı öz inkişafının dönüs nöqtəsi olan və ədəbi istilahda "bazgəşt" (qayıdış) dövrü adlanan mərhələni keçmiş və yeni bir istiqamətə meyl etmişdir.

Bu paraqrafın "**Qacarlar dövlətinin yaranması və həmin dövrdə ədəbiyyatın inkişafı: poeziya**" adlı ilk bəndində Qacarlar sülaləsinin soy-kökündən, dövlət kimi formalaşmasından bəhs edilir. *"Səfəvilər imperiyasının süqutundan sonra onilliklər boyunca davam edən hərbi-siyasi qeyri-sabitlik və  sosial-iqtisadi təzyiqlərlə üzləşən Qacarların dövlət yaratması və idarəçilik qabiliyyəti təqdirəlayiq idi."*[11]  Əsrlər boyunca siyasi hakimiyyətdə bir-birini əvəz edən Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Əfşar kimi türk tayfalarının davamçıları olan Qacarlar bunu öz siyasi davranışlarında da nümayiş etdirirdilər. Qacarlar dövrünün tanınmış saray tarixçiləri bu sülaləyə mənsub hökmdarları  qüdrətli türk xaqanları ilə müqayisə edirdilər.[12]

Bəşər tarixində elm və mədəniyyət sahəsində tərəqqi dövrünun başlanğıcı sayılan XVIII yüzilliyin sonlarında təşəkkül tapmış Qacarlar dövlətinin xidmətlərindən biri də İranın Avropa ilə ilk əlaqələrinin yaranması hesab olunurdu.[13] Qacarlar zamanında İrana səfər etmiş əcnəbi diplomatlar, səyyah və tacirlər tez-tez öz xatirə və səfərnamələrində Təbriz və digər Azərbaycan şəhərlərinin iqtisadi-mədəni yüksəlişindən və azərbaycanlıların ölkənin ictimai-siyasi və

---

[11] Ashraf, A. From Khan to Shah: State, society and forming the ties that made Qajar Iran. / A dissertation presented for the degree of Doctor of Philosophy. New York:Yale University,-2016, - 371 p., p. 324

[12] Amanat, A.  Pivot of the universe: Nasir al-din Shah and the Iranian monarchy, 1831-1896. Berkeley: University of California Press, - 1997- 536 p., p. 10;
نادرميرزا، تاريخ و جغرافي دارالسلطنه تبريز، مقدمه، تصحيح و تحشية غلامرضا طباطبايي مجد، تبريز: ستوده. 1373، ص 40

[13] نفیسی، سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره ی معاصر. تهران: انتشارات بنیاد. در 2 جلد. 1366, ج 2، ص 221-224

mədəni həyatında oynadıqları mühüm roldan bəhs edirlər.[14] *"Qacarlar dövlətində fəaliyyət göstərmiş diplomatların 90 faizindən çoxu Azərbaycan türklərindən ibarət idi."*[15]

Bu paraqrafda əsasən dövrün poeziyasının inkişaf təmayüllərindən və mühüm ədəbi proseslərdən bəhs edilir. Yeddi Qacar hökmdarının dördünün yalnız şeir və ədəbiyyata ilgi döstərməklə kifayətlənməyərək özlərinin də şeir yazması (mükəmməl şeir divanı olan Fətəli şah və Nasirəddin şahdan başqa mənbələrdə Məhəmmədəli şah və Əhməd şah Qacarın da şeirlərindən örnəklərə rast gəlinir) bu dövrdə poeziyanın çiçəklənməsinə xidmət etmişdir.[16] Qacarlar dövrü ədəbiyyatı tədqiqatçılar tərəfindən *"bazgəşt-e ədəbi"* ("ədəbi qayıdış") dövrü adlandırılır ki, bu cərəyanın ilk rüşeymləri hələ Səfəvilər zamanında meydana gəlmişdir. Tədqiqatçılar "bazgəşt" cərəyanını Qacarlarla, məhz Fətəli şahın hakimiyyət dövrü ilə əlaqələndirirlər.[17] Bir çox tədqiqatçıların söylədiyi kimi "Bazgəşt dövründə şairlərin xüsusi bir üslubu yox idi, onların əsas üslubu köhnə üslubların (*Xorasan, İraq, Azərbaycan*) təqlidi idi."[18]

Bu bölmədə eyni zamanda Qacarlar dövrünün tanınmış söz ustadları və poeziyanın aparıcı simaları olan Vüsal Şirazi (1783-1846), Füruği Bəstami (1798-1857), Qaani Şirazi (1808-1854), Sürуş İsfahani (1813-1868) və Yəğma Cəndəqinin (1781-1859) həyat və yaradıcılığı müxtəsər şəkildə araşdırılmışdır.

Bu paraqrafın ikinci bəndi "**Qacarlar dövründə nəsrin inkişafı**" adlanır. Bu bölmədən məlum olur ki, Qacarlar dövrü nəsrinin əsas istiqaməti saray tarixçiliyi, şairlərin yaradıcılığını əks etdirən

---

[14] Musalı, N. Kaçarlar döneminde Türk kimliği ve türkçenin konumu meseleleri üzerine. // Amasya Üniversitesi Sosyal Bilimler Dergisi. - Cilt 2, Sayı 4, Aralık, 2018.- s. 131-171

[15] Çingizoğlu, Ə., Qacar M. Qacarlar dövrünün diplomatları. Bakı: Mütərcim, - 2014.- 240 s., s. 4

[16] Tecrübekar, Banu Nüsret. İran Edebiyatında şiir- Kaçarlar devri. / Türkçeye çev.: Mehmet Kanar.- İstanbul: İnsan Yayınları, - 1995.- 172 s., s. 36

[17] طایفی، شیرزاد. بررسی نمودهای مذهبی در شعر عهد قاجار. مجله " ادیان و عرفان". پائیز و زمستان 1389. سال چهل و سوم. شماره دوم. ص 99-115.

[18] لنگرودی، شمس. مکتب بازگشت ادبی. تهران: نشر مرکز. 1375. ص 48

təzkirəçilik, divanxana məktub və sənədlərindən ibarət olan "münşəat" və səfərnamələr yazmaq olmuşdur. Dövrün tanınmış və istedadlı ədibləri bu sahələrə aid qiymətli əsərlər yazaraq təkcə nəzm deyil, nəsr sahəsində də tərəqqi prosesinə rəvac vermişlər. Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Mirzə İsa Qaimməqam Fərahani, Mahmud Mirzə Qacar, Fərhad Mirzə Qacar, İmamqulu Mirzə Qacar, Nadir Mirzə Qacar, Məhəmmədhəsən xan Etimadüssəltənə, Rzaqulu xan Hidayət bu dövrün mötəbər qələm sahibləridir.

Adlarını sadaladığımız bu ədiblərin arasında Qacarlar sarayı ilə bağlı olan yüksək mənsəb sahiblərindən Əbdürrəzaq bəy Dünbüli Azərbaycaninin (1762-1827) "Nigaristani-Dara" ("Daranın gülüstanı"), "Təcrübətül-əhrar və təsliyyətül-əbrar" ("Azadələrin təcrübəsi və müqəddəsləri təsəllisi") və "Hədayiqül-üdəba" ("Ədiblər bağçası") təzkirələri və tarixi mövzuda qələmə aldığı "Məaseri-sultaniyye" ("Hökmdarın gördüyü işlər") adlı əsərləri Qacarlar dövrünün siyasi-ictimai və mədəni-ədəbi mühitinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qacarlar dövründə yaşamış görkəmli dövlət xadimi və ədiblərdən biri də Rzaqulu xan Hidayət (1800-1871) olmuş, öz fəaliyyəti dövründə müxtəlif vəzifələrdə, o cümlədən İranda açılmış ilk Avropa tipli ali məktəb olan Tehran Darülfünunun rektoru vəzifəsində çalışmışdır. Yüksək istedad sahibi olan Rzaqulu xanın qələmə aldığı: "Riyazül-arifin" ("Ariflər bağçası"), "Rövzətüs-səfayi-Nasiri" ("Nasirin səfa gülüstanı") və "Məcməül-füsəha" ("Fasehlər yığıncağı") təzkirələri ədəbi-tarixi əhəmiyyətə malik əsərlərdir.

Qacarlar dövründə qələmə alınan nəsr əsərləri bu dövrün ədəbi dilinin sadələşməsində və inkişafında böyük rol oynamışdır.

Bu paraqrafın "**Qacarlar dövründə Azərbaycan türkcəsi**" adlanan son bəndi Qacarlar dövründə Azərbaycan dilinin mövqeyi və Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın yaradıcılığına həsr olunmuşdur. Qaynaqlarda Qacarlar dövrü ədəbiyyatının zənginləşməsinə xidmət edən, milliyyətcə azərbaycanlı olan yüzlərlə şair və ədiblərin adlarına rast gəlinir. Bu araşdırmanın tədqiqat obyekti olan Qacarlar dönəmində qeyd etdiyimiz kimi saray daxilində ədəbi

dil fars dili idi, amma Qacar hökmdarlarının və vəzifədə olan əsas dövlət məmurlarının əksəriyyətinin türk olması səbəbindən danışıq dili həm sarayda, həm də orduda əsasən Azərbaycan türkcəsi olmuşdur. İranda türk xanədanlarının min illədək davam edən hakimiyyət silsiləsinin sonuncu halqası olan Qacarlar öz əcdadları kimi qədim türk adət-ənənələrinə sadiq idilər. Türkəsilli hakim sülalə tərəfindən milli mənsubiyyətinə görə Azərbaycan türkü olan şair və ədiblərin hansı dildə yazmaları üçün heç bir məhdudiyyət qoyulmamışdı. Xüsusilə Təbriz vəliəhd sarayında yaşayan şahzadələr türk dilində danışmağı öyrənirdilər. *"Əsilləri türk olan Qacar hökmdarları İran ədəbiyyatını himayə etməklə yanaşı, türkcə əsərlər yazılmasını da təşviq edirdilər."*[19]

Qacarlar dövrünün azərbaycanlı şairləri haqqında bilgi verən Məhəmmədkazım Əsrar Əlişahın (d.1848) "Behcət üş-şüəra" təzkirəsi, Məhəmməd Deyhim Təbrizinin (1907-2008) "Təzkire-yi şüəra-yi Azərbaycan" adlı iki cildlik əsərində, Məhəmmədəli Tərbiyətin (1877-1940) "Danişməndani-Azərbaycan" və s. təzkirələrdə Atəşi Marağayi, Dəxil Marağayi, Əndəlib Qaracadaği, Mirzə Məhəmmədrəzi Təbrizi Bəndə, Seyid Əbülqasim Nəbati, Zikri Ərdəbili, Mirzə Əbülhəsən Raci, Məhəmmədbağır Xalxali, Mirzə Əli xan Ləli, Məhəmmədəmin Dilsuz, Hacı Mehdi Şükuhi, Ədib Marağayi, Əbülfət xan Cavanşir, Həkim Molla Məhəmməd Əli Hidəci kimi bu dövrün tanınmış şairləri yad edilmişdir.

Dissertasiyanın I fəslinin üçüncü paraqrafı "**Fətəli şah Qacarın həyatı, dövrü və mühiti**" adlanır. Bu paraqrafın birinci bəndində Fətəli şah Qacarın həyatının mühüm məqamları işıqlandırılır.

**Fətəli şah Qacar**, Qacarlar sülaləsinin ikinci hökmdarı, 24 yanvar 1772-cu ildə (h.q. 1185-cü il, 18 şəvval) doğulmuş, 1834-cü il oktyabrın 23-də (h.q. 1250-ci il, 19 cəmadiəssani) vəfat etmişdir. O, Qacar tayfasının Qovanlı / Qoyunlu (aşağıbaş) soyundan olub, Ağa Məhəmməd xanın kiçik qardaşı Cahansuz kimi tanınan Hüseynqulu

[19] Heyət, C. Azərbaycan ədəbiyyatına bir baxış. / C. Heyət.- Bakı: Yazıçı, – 1993. - 176 s., s. 101

xan Qovanlı-Qacarın böyük oğlu idi. Anası aşağıbaş tayfasından Məhəmməd ağa Dəvəlu-Qacar İzədüddövləinin qızı idi.[20] Atasının hakim olduğu Damğan şəhərində dünyaya gəlmiş, hakimiyyət intriqalarının qurbanı olan babasının şərəfinə Fətəli xan adlandırılmış, hakimiyyətə gələnədək isə "Baba xan" adı ilə tanınmışdı.

Əmisi Ağa Məhəmməd xanın 1797-ci ildə Qarabağın Şuşa şəhərində faciəli şəkildə öldürülməsindən sonra baş vəzir İbrahim xan Etimadüssəltənənin səriştəsi və uzaqgörənliyi nəticəsində gənc vəliəhdin bütün real rəqibləri kənarlaşdırıldı. Qacar xanədanının rəsmi varisi kimi səfər ayının 4-ü 1212 / 28 iyul 1797-ci ildə taxta çıxan Baba xanın şərəfinə Şiraz və Tehranda "Fətəli şah" adı ilə sikkələr kəsildi.

Bu paraqrafın **""Əncüməni-Xaqan" məclisi"** adlı ikinci bölümü Fətəli şah Qacarın hakimiyyət illərində (1797-1834) saray daxilində ədəbi mühit, onun özü ilə bərabər müasirlərinin də ədəbi fəaliyyəti araşdırılmışdır. Fətəli şahın "Xaqan" təxəllüsü ilə şeirlər yazmasına və Qacarlar dövrü poeziyasının çiçəklənməsində mühüm rol oynadığına bir çox məxəzlərdə işarə edilmişdir.[21] Onun hakimiyyəti dövründə ədəbi mehvər rolu İsfahandan Tehrana ötürülmüş, sarayda təşkil olunan "Əncüməni-Xaqan" məclisi o dövrün bütün tanınmış ədib və şairlərini öz işığına toplamışdır. Şeirin rəsmi saray çərçivəsində inkişat etməsi bu dövrün poeziyasının əsas xüsusiyyətlərindən idi. Qədim Samani şahları, sonra isə Qəznəvi və Səlcuqi sultanlarının zamanında olduğu kimi Fətəli şah Qacarın dövründə də saray ədəbi mərkəzə çevrilmişdi. Bu dövrdə Fətəli şahın poeziya ocağına toplaşan Səba Kaşani, Əbdülvahab Mötəməddövlə Nişat, Mecmər İsfahani, Mirzə Əbdülbaqi Təbib İsfahani, Vüsal Şirazi və onlarla şair yeni yaranmış ədəbi məktəbin fəal üzvlərindən olmuşlar.

---

[20] هدایت، رضا قلی خان. تاریخ روضه‌الصفای ناصری. به تصحیح و تحشیه جمشید کیانفر. در 10 جلد. تهران: انتشارات اساطیر. 1380. ج 9، ص 86
عضدالدوله، سلطان احمدمیرزا. تاریخ عضدی. به تصحیح عبدالحسین نوایی. تهران: انتشارات علم. 1376، ص 91

[21] Browne, E.G. A Literary History of Persia. Volume IV. Modern Times (1500-1924) / E.G.Browne. – Cambridge: The University Press, – 1969. – p.147;
آریانپور، یحیی. از صبا تا نیما. در سه جلد. تهران. انتشارات زوار. 1373. ج 1، ص 13

“Əncüməni-Xaqan” məclisi haqqında qaynaqlarda ilk məlumata Məhəmməd Fazil xan Ravi tətəfindən Fətəli şahın sifarişi ilə 1818-1819-cu illərdə qələmə alınmış “Əncüməni-Xaqan” adlı təzkirədə rast gəlirik.[22]

Fətəli şahın 37 illik hakimiyyət dövrünü poeziyanın müasir ədəbi tənqidçilər tərəfindən “bazgəşte-ədəbi” (“ədəbi qayıdış”) cərəyanı adlandırılan təkamül mərhələsinin ən məhsuldar dövrü hesab edə bilərik. Onun hakimiyyətə gəlişi ilə fars ədəbiyyatında uzun müddət hökmsürən durğunluq dövrü sona çatmış və *“poeziyanın inkişafında yeni bir mərhələ”* başlanmışdı.[23] Şeirləri ilə klassik ədəbi ənənələrin bərpasına rəvac verən hökmdar-şair zövq və təb sahiblərini ətrafına toplayaraq poeziya məclislərini rövnəqləndirdi.[24] Klassik şeir ənənələrinin yenidən dirçəlişi və Ünsüri, Fərruxi, Xaqani, Nizami, Sədi və Hafiz kimi söz sərraflarının yadigar qoyduğu ədəbi ənənələrə dönüş bu dövrün poeziyasının əsas atributu idi.

Dissertasiya işinin **ikinci fəsli “Fətəli şahın şeir külliyyatı (“Divani-Xaqan”)”** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsildə Fətəli şah Qacarın şeir divanının quruluşu, tərtibatı, şeirlərinin bədii xüsusiyyətlərindən bəhs olunur, onun yaradıcılığının başlıca keyfiyyətləri vurğulanır.

İkinci fəslin ilk paraqrafı ““**“Divani-Xaqan”ın nəşrləri, quruluşu, vəzn və qafiyə sistemi**” adlanır. Bu paraqraf da iki bənddən ibarətdir. Birinci bəndi **“Divani-Xaqan”ın əlyazma nüsxələri, nəşrləri və strukturu”** adlanır.

Fətəli şahın “Divani-Xaqan” adı ilə məşhur olan şeir külliyatının nəfis əlyazmaları hazırda İran Milli Kitabxanasında, İran Məclis Kitabxanasında və başqa mötəbər fondlarda qorunub saxlanılır. Onun şeirləri hələ sağlığında xəttatlar tərəfindən dəfələrlə üzü köçürülmüşdür. Fətəli şahın divanının nəfis tərtibatda gözəl xətlə köçürülmüş bir əlyazma nüsxəsi də Britaniya kralına hədiyyə

---

[22] گروسی، محمد فاضل خان راوی. تذکره انجمن خاقان. به تصحیح و مقدمه توفیق سبحانی. تهران: انتشارات روزنه. 1376. ص 686

[23] حمیدی شیرازی، مهدی. شعر در عصر قاجار. تهران: انتشارات گنج کتاب. 1364، ص 12-16

[24] صفایی، ابراهیم. نهضت ادبی ایران در عصر قاجار. تهران: انتشارات سینا. ص 9-7

edilmişdir.[25] Divan şəklində ilk çapı daşbasma (litoqrafiya) üsulu ilə Tehranda 1859-cu ildə Nasirəddin şahın göstərişi ilə həyata keçirilmişdir. Həmin nüsxə Tehranda İranın Milli Kitabxanasında mühafizə edilir.

Fətəli şahın divanının filoloji tədqiqi nəticəsində onun "Divani-Xaqan" adlanan farsca şeir divanının, pərakəndə beytlər də daxil olmaqla, 3221 beytdən ibarət olduğu müəyyən edilmişdir. Bunlardan 220 beyti qəsidələr, 2217 beyti qəzəllər, 144 beyti rübailər, 149 beyti məsnəvilər, 110 beyti qitələr, 111 beyti saqinamə, 30 beyti tərkibbənd, 282 beyti məzhəbi şeirlər və 50 beyti müfrəd (tək) beytlərdir. Divanın müxtəlif əlyazma, daşbasma və çap nüsxələri nəzərdən keçirilərkən Fətəli şahın Azərbaycan türkcəsində yazılmış 2 qəzəlinin, 2 rübaisinin və bir neçə müfrəd (tək) beytlərinin və ərəbcə on dörd beytlik bir mərsiyəsinin olduğu müəyyən edilmişdir.

Bu paraqrafın ikinci bəndi **""Divani-Xaqan"ın vəzn və qafiyə xüsusiyyətləri"** adlanır.

Fətəli şahın şeir divanı vəzn baxımından da rəngarəngdir, xüsusilə divanın böyük bir hissəsini təşkil edən "Qəzəllər" bölməsində vəzn müxtəlifliyi nəzərə çarpır. O, qəzəllərində əruzun klassik poeziyada ən çox işlənən 10 bəhrinin 28 növündən istifadə etmişdir. Bunlar *həzəc, rəməl, rəcəz, mütəqarib, müctəs, müzare, münsərih, müqtəzəb, səri və xəfif* bəhrləridir.

Divanın "Qəsidələr" bölməsi cəmi 220 beytdən ibarət olan 7 qəsidədən ibarətdir, mövzularına görə əsasən dini səciyyə daşıyır. Qəsidələrini təntənəli qəsidə ölçüsü hesab edilən *rəməl* bəhrində yazmışdır.

"Rübailər" bölməsi 36 rübaidən ibarətdir. Fətəli şahın rübailəri əsasən lirik məhəbbət, bəzən də dini-fəlsəfi və irfani məhəbbət mövzusunda olub, ölçüsünə görə çoxu altılıq və səkkizlik *həzəc* bəhrindədir.

Fətəli şahın divanına 5 məsnəvi daxildir, onlardan dördünü *həzəc*, birini isə *mütəqarib* bəhrində qələmə almışdır.

---

[25] یوسفی، نسترن. شگفتی ملکه انگلیس از دیوان شعر فتحعلی‌شاه. روزنامه کیهان لندن.18 فروردین 1394.
https://kayhan.london/fa/?p=9048

Apardığımız araşdırmadan məlum olur ki, Fətəli şah yaradıcılığı boyunca əruzun klassik poeziyada işlənənən 11 bəhrinin 30 növündən istifadə etmişdir ki, bunların içərisində *rəməl, həzəc və müzare* bəhrlərinin müxtəlif ölçülərinə üstünlük vermişdir.

Divani-Xaqan"ın əlyazma  və daşbasma nüsxələri klassik divan formasına uyğun şəkildə qafiyə hərflərinə görə tərtib edilmişdir. Divan ədəbiyyatında şeirlər  bildiyimiz kimi beytin son misrasının sonuncu hərfinə (poetikada *"hərf-i rəvi"* adlanır) görə sıralanır.  Fətəli şahın divanına daxil olan qəzəlləri 16 qafiyə hərfi ( ا -əlif, ب -be , ت -te, چ -çe, د -dal, ر -re, ز -ze, س -sin,  ش-şin, ق -qaf, ل -lam, م -mim, ن -nun, و -vav, ه -ha, ی -ye) ilə tamamlanır.

Şairin divanının poetik özəlliklərindən biri də rədifli qəzəllərin çoxluğudur. *"Rədif"* hər beytin sonunda təkrarlanan eyni söz, söz birləşməsi və ya leksik vahidlərdir ki, şerə yüksək harmoniya və ahəngdarlıq bəxş edir. Klassik  şerdə çox  işlənən  rədiflər *"şairin ifadə etmək istədiyi fikir və hissi daha qabarıq, daha qüvvətli çatdırmağa xidmət edir."*[26]  "Divan-Xaqan"da ən çox rast gəlinən "کجا", "نیست", "نیست ترا", "امشب", "شکست", "گرفت",  "رفت", "کرد", "باشد", "میاید", " می داند", "کند", "خواهد شد", "می گذرد", "خوشتر", "بهتر" və s. rədifli qəzəllərdir.

Dissertasiyanın II fəslinin iknci paraqrafı **"Divani- Xaqan"ın ideya-məzmun və bədii sənətkarlıq məziyyətləri"** adlanır. Bu paraqraf dörd bənddən ibarətdir. İlk bənd **"Fətəli şahın yaradıcılığında məhəbbət mövzusu"** adlanır.

Klassik şeirin  üslub və məzmununa uyğun olaraq Fətəli şahın da qəzəllərində  müraciət etdiyi başlıca mövzu ənənəvi eşq və məhəbbət çalarları ilə bağlıdır. Onun qəzəllərində eşq real, həyati məna daşıyır və birbaşa aşiqin keçirdiyi romantik-emosional halları təsvir edir. Böyük yunan filosofu Aristotel də ədəbi janr kimi *"lirikanı şairin daxili yaşantıları və həyəcanlarının ifadə vasitəsi"* hesab edirdi.[27]  Fətəli şah da  lirik şeirin ənənəvi obrazlarından istifadə edərək, belə şeirlərində aşiqin könül yanğısı, ürək döyüntüsü və vüsal

---

[26] Mirəhmədov, Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, -1998.- 240 s., s. 181

[27] Aristotel. Poetika. / Azərb. dil. tərc. ed.: A. Aslanov. - Bakı:  Şərq-Qərb, – 2006. - 120 s., s. 12.

həsrətindən söz açır. Onun qəzəlləri öz ritmi, səmimiliyi, rəvanlıq və səlisliyi baxımından diqqətəlayiqdir. İnsanın daxili hiss-həyəcanını, təbii duyğularını əks etdirən bu qəzəllər şairin zəngin mənəvi dünyasından və təxəyyül aləmindən xəbər verir.

Bu paraqrafın **“Divani-Xaqan”ın bədii-estetik özəllikləri”** adlanan ikinci bəndində Fətəli şahın yaradıcılığında bədii ifadə vasitələrinin işlənmə xüsusiyyətləri təhlil edilir.

Fətəli şahın divanında çox mühüm bir yer tutan qəzəlləri rəngarəng poetik fiqurlarla – təşbih və epitetlərlə, metaforalarla zəngindir. Onun nəzərdən keçirdiyimiz şeirləri əsasında deyə bilərik ki, “Divani-Xaqan”da Şərq klassik poeziyasında ən çox rast gəlinən, şeirdə mənanın qüvvətlənməsinə və daha təsirli olmasına xidmət edən bədii fiqurlara-*istiarə, müraat ün-nəzir, təzad və müqabilə (mütabiqə), ebda, təcahülü-arif* və s. tez-tez rast gəlinir. Onun xüsusilə qəzəllərində tez-tez rastlaşdığımız maraqlı poetik fiqurlardan biri də *ləff-ü nəşrdir.*

Fətəli şahın yaradıcılığında təqlid mühüm yer tutur. O, bütün yaradıcılığı boyu klassik ədəbi ənənələri öyrənmiş, onları öz yaradıcılığına tətbiq etmiş və müasiri olan şairlər tərəfindən də bu ənənələrin dəstəklənməsinə şərait yaratmışdır. “Divani-Xaqan”ı vərəqlədikcə şairin yaradıcılığında klassik poeziyanın görkəmli nümayəndələrinin ədəbi irsinin güclü təsirinin şahidi oluruq. Onun ədəbi təcrübəsindən bəhrələndiyi şairlər sırasında Ünsüri, Əmir Müizzi, İraqi, Əttar, Xaqani, Nizami, Sədi, Hafiz və başqalarının adlarını sadalamaq olar.

Qacar şahının yaradıcılıq üslubunda başlıca prinsip özündən əvvəlki şairlərin ədəbi təcrübəsindən bəhrələnmək və klassik poeziya ənənələrini öz dövrünə gətirmək olmuşdur. Bu baxımdan onun yaradıcılığında nəzirələrə çox rast gəlinir. Fətəli şahın yaradıcılığına müraciət edərək qəzəllərinə ən çox bənzətmələr yazdığı şairlər məşhur qəzəl ustadları Sədi və Hafiz olmuşdur. Onun divanını Sədi və Hafiz səpkində yazdığı onlarla qəzəl bəzəyir.

İkinci paraqrafın üçüncü bəndi **“Fətəli şahın məsnəviləri”** adlanır. Öz yaradıcılığında əsasən romantik üsluba üstünlük verən şair həm də bir neçə məsnəvi müəllifidir. Onun şeir divanına beş məsnəvi

daxil edilmişdir. Ənənəvi eşq mövzusunda qələmə alınmış bu əsərlər kiçik həcmli olmasına baxmayaraq həm forma, həm də məzmun baxımından kamil poetik parçalardır. "*Lirik epizodik hekayə şəklində nəql edilən "طعنه بر مجنون" ("Məcnuna tənə") poeması Şərq klassik poeziyasından, konkret olaraq böyük Azərbaycan şairi Nizami Gəncəvinin bədii irsindən qaynaqlanmışdır."*[28]

Bu paraqrafın sonuncu bəndi **"Fətəli şahın şeirlərinə yazılan bənzətmələr"** adlanır.

Ədəbi məclislərin əsas ənənələrindən biri də hər hansı şairin məşhur bir şeirinə bənzətmə yazılması idi. Məclisdə oxunan şeirin qafiyə və vəznini saxlamaqla iştirakçılar ona nəzirə yazdıqları şeirləri oxuyur, bir neçə şeir arasından əksəriyyət tərəfindən ən çox bəyənilən şeir seçilirdi.

Təqribən otuz ildən artıq fəaliyyət göstərən "Əncüməni-Xaqan" ədəbi məclisində klassik poeziya ənənələrinin ehyası ön plana çəkilir, Sədi, Hafiz kimi ustad şairlərin şeirləri oxunur və şairlərdən nəzirələr yazmaq tələb olunurdu. Şərq poeziyasında hər hansı bir şeirin qafiyə və vəznini hifz etmək şərtilə ona bənzətmə yazmaq heç də qərb ədəbiyyatında olduğu kimi epiqonçuluq xarakteri daşımır, əksinə şairin yüksək təfəkkür və təxəyyülündən xəbər verirdi. *"Şərq ədəbi düşüncə modelində verilmiş dar çərçivə içərisində, eyni mövzu, eyni süjet, eyni hadisələr, eyni qəhrəmanlar müstəvisində deyilişin daha ustaca tərzi ilə məharət göstərməyi orijinallıq və yüksək sənətkarlıq qabiliyyəti kimi dəyərləndirilirdi."*[29]

Şeirlərinə çoxlu sayda bənzətmələr yazılan şairlərdən biri də Fətəli şah Qacar olmuşdur. Şeir məclislərində şahın özü tərəfindən oxunan şeirlərinə nəzirə yazmaq üçün məclis əhli yarışırdılar. Bəzən

---

[28] Əqiq G. Fətəli şah Qacarın "Məcnuna tənə" məsnəvisi Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının ənənələri kontekstində. // "Risalə" elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyi. –Bakı: Elm və təhsil. -2019, № 2 (17), s. 71-81

[29] Hüseynov, R. Nizami Gəncəvinin ədəbi məktəbi və poetik ənənələri XIII-XX əsrlər Şərq və Qərb mədəniyyətində. // "Risalə" elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyi. –Bakı: Elm və təhsil. -2013,- s. 10-19

isə Xaqanın dedyi bir və ya bir neçə beyti şairlər təzmin edərək (olduğu kimi saxlayaraq) özləri də həmin qafiyə ilə yeni qəzəl və ya qəsidə yazırdılar.

Dissertasiya işinin II fəslinin üçüncü paraqrafı "**Fətəli şahın irfani, ictimai-fəlsəfi və məzhəbi şeirləri"** adlanır, iki bənddən ibarətdir. İlk bənd "**Fətəli şahın məzhəbi şeirləri**" adlanır.

19-cu əsrin sonlarında Qacarların hakimiyyətə gəlməsi ilə ölkənin əsas idarəçilik sistemi olan teokratiya monarxiyasıının başlıca siyasi dayağının ruhanilər olması ədəbi mühitə də öz təsirini göstərirdi. *"Fətəli şah əmisi Ağa Məhəmməd xanın siyasətini davam etdirərək hökumət dairələri ilə dini qurumlar arasında sıx əlaqə yaratdı və öz hakimiyyətinə dini məşruiyyət qazandırmağa səy göstərdi."*[30] Xüsusilə, Fətəli şah və Nasirəddin şah Qacar həm həyata keçirdikləri iqtisadi-siyasi reformalar zamanı, həm də bədii yaradıcılıqlarında yüksək dini etiqada malik olduqlarını nümayiş etdirirdilər. Bu dövrün başlıca fəlsəfi ideologiyası belə düşünməyə əsas verir ki, *"cəmiyyətdə insanların mənəvi-əxlaqi dəyərlərinin formalaşması üçün məzhəbi məktəbdən başqa heç bir istinad mənbəyi mövcud deyildi."*[31]

Qacarlar dövründə yaşayıb yaradan saray şairlərinin bədii irsində mədhiyyələrlə yanaşı məzhəbi şeirlər də üstünlük təşkil edirdi. "Divani-Xaqan"da çoxlu sayda dini məzmun daşıyan qəzəl və qəsidələrə rast gəlinir. Fətəli şahın Səfəvilər dövründə yaşayıb-yaratmış Möhtəşəm Kaşaninin (1528-1588) məşhur mərsiyələrinə bənzətmə olaraq yazdığı dini qəsidələri yüksək bədii məziyyətləri ilə səciyyələnir.[32]

Bu paraqrafın ikinci bəndi "**Fətəli şahın ictimai-fəlsəfi və irfani şeirləri"** adlanır.

---

[30] Ramazani, A. Fətəli şah Qacar. /Fars dil. tərc. edən: Böyük Mollayi. Redaktoru və ön sözün müəllifi: Ə. Çingizoğlu. - Bakı: Mütərcim, - 2015. - 156 s., s. 43

[31] شميم، على اصغر. ايران در دوره سلطنت قاجار. تهران: انتشارات زرياب. 1380. ص 381

[32] Əqiq G. Qacarlar dövründə poeziyada dini meyllər // "Gənc tədqiqatçı" elmi jurnalı. AMEA Gənc Alim və Mütəxəssislər Şurası. Bakı: Elm, 2019, № 2 (5), s. 185-191

Orta əsrlərdən başlayaraq Şərq ədəbiyyatında əsas ədəbi-fəlsəfi cərəyan kimi formalaşmış təsəvvüf bazgəşt dövrü şairlərinin yaradıcılığında da mühüm yer tuturdu. Fətəli şahın divanında sufi-irfani məzmunlu qəzəllər nəzərə çarpır. Müəllif bu qəzəllərdə əsas irfani elementlər olan saqi, sağər (piyalə), mey, məst, piri-muğan kimi ifadələr işlətmiş, lirik qəhrəmanının əbədi eşq meyi içib əzəli səadətə qovuşmaq arzusunu əks etdirmişdir.

Fətəli şah Qacarın şeir divanında iki lirik-fələsfi məzmunlu saqinamə yer almışdır, bunlardan biri 95, digəri 16 beytdən ibarətdir. Bu poetik poetik ənənəvi saqinamə formasında yazılmışdır, məsnəvi şəklində və əruzun mütəqarib bəhrindədir. Fətəli şahın saqinamələrinin Şərq ədəbiyyatında ilk saqinamə ustadı olan Nizami Gəncəvinin "İskəndərnamə" əsərində yaratdığı saqinamələri ilə müqayisəli təhlili göstərir ki, *o, lirik-epik poeziya nümunələrində Nizami sənətinin bədii məziyyətlərini əxz etmişdir. Müəllif öz sələfi kimi klassik mifoloji və əfsanəvi obrazların aşıladığı əxlaqi-mənəvi dəyərlərlə oxucunu düşündürməyə çalışmışdır.*[33]

**III fəsil "Fətəli şahın davamçıları"** adlanır, iki paraqrafdan ibarətdir. Bu fəsildə Fətəli şahın şair övladlarından, poeziya həvəskarı olan həyat yoldaşlarından, Qacar şahzadələrinin ədəbi-bədii irsindən, onların ədəbiyyata gətirdikləri yeniliklərdən bəhs edilir.

Bu fəslin ilk paraqrafı "**Fətəli şahın ailəsində şeirə münasibət və onun şeirlə bağlı həyat yoldaşları**" adlanır və üç bənddən ibarətdir. İlk bənd **"Hökmdarın şeirlə bağlı həyat yoldaşları"** adlanır.

Böyük hərəmxanası olan Fətəli şahın, dəqiq sayı bilinməyən həyat yoldaşları arasında da şeir həvəskarlarının olduğu məlumdur. Fətəli şahın hərəmxanası haqqında Qacarlar dövrünün saray katibləri və tarixçiləri bilgi vermişlər. Onun hərəmlərinin dəqiq sayı indiyədək müəyyənləşdirilməmiş, mənbələrdə isə yalnız adlı-sanlı ailələrdən

---

[33] Əqiq G. Şərq poeziyasında saqinamə janrı və Fətəli şah Qacarın saqinamələri // "Risalə" Elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi. // Bakı, Elm və təhsil, 2018, №19 (2), 240 s., s. 31-42

olan həyat yoldaşları haqqında məlumat verilmişdir. Şahın hərəmlərinin siyahısı “Nasex ət-təvarix”, “Tarixi-İzədi”, “Xeyrati-Həssan”, “Təzkirət ül-xəvatin”, “Rövzət üs-səfayi-Nasiri” əsərləri əsasında tərtib edilmişdir. Bu siyahıda şahla nikah bağlamış 160 qadının adı çəkilir. Mənbələrə görə, *onların 44-ü şahla daimi nikahda, digərləri müvəqqəti nikahda olmuşlar*.[34]

Fətəli şahın şairə kimi daha çox tanınmış zövcəsi zadəgan nəslindən olan həyat yoldaşı Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin qızı “Ağabacı” ləqəbli *Ağabəyim ağa* (1780-1832) olmuşdur. Mənbələrdə istedadlı şairə olan Ağabəyim ağanın “Tuti” təxəllüsü ilə türkcə və farsca şeirlər yazması və şeir divanının olması haqqında məlumat verilmişdir. Qaynaqlarda Fətəli şahın şairə olan xanımlarından *Tavus xanım Tacüddövlə, Sünbülbacı, Haciyə xanım, Dilşad xatun* və başqalarının adı çəkilir.[35]

Bu paraqrafın ikinci bəndi “**Fətəli şahın şair oğul və qızları**” adlanır. Şairlik ənənəsi Fətəli şahdan sonra onun davamçıları olan oğul və qızları, nəvə və nəticələri tərəfindən davam etdirilmişdir. Fətəli şahın övladlarının dəqiq sayını müəyyən etmək mümkün olmamış, mənbələr bir-birinə yaxın olan müxtəlif rəqəmlər göstərmişlər. Qacarların saray tarixçilərinin yazdığına görə, *“Onlardan 159-u hələ Fətəli şahın sağlığında dünyadan köçmüş, qalanlardan 57-i oğlan, 46-ı qız olmuşdur. Sağ qalan övladları ilə birlikdə Fətəli şahın övlad və nəvələrinin sayı 780 idi.”*[36] Rus mənbələri, 1834-cü ildə vəfat edərkən şahın bütün övlad və nəvə-nəticələrinin ümumi sayının 935 nəfər

---

34 گل محمدی "فریاد"، حسن. تحقیق در باره زندگانی، احوال ، اعمال، افکار، آثار ودیوان کامل اشعار فتحعلی شاه قاجار"خاقان". تهران: انتشارات اطلس. 1370، ص 475-457

35 عضدالدوله، سلطان احمد میرزا. تاریخ عضدی. به تصحیح عبدالحسین نوایی. تهران: انتشارات علم. 1376، ص 82-12

36 خاوری شیرازی، میرزا فضل‌الله. تاریخ ذوالقرنین. تصحیح ناصر افشارفر. در دو جلد. تهران: وزارت فرهنگ و ارشاد اسلامی و کتابخانه، موزه و مرکز اسناد مجلس شورای اسلامی. 1380. ج 2، ص 970سپهر، محمدتقي خان ،ناسخ‌التواریخ: تاریخ قاجاریه. به اهتمام جمشید کیانفر، در دو جلد. تهران: اساطیر. 1377. ج 1، ص 532

olduğunu yazırlar.[37] Müasir dövr tədqiqatçıları mənbələrə əsasən 54 Qacar şahzadəsinin adlarını çəkirlər.[38]

Nəzərdən keçirdiyimiz qaynaqlara görə 37 il 8 ay şahlıq edən, 62 yaşında dünyasını dəyişən Fətəli şah Qacarın (1772-1834) vəfat edərkən 57 oğul, 48 qız övladı olmuşdur.

Qacar şahzadələri arasından çoxlu şairlər çıxmışdır və onlar haqqında bir çox məxəzlərdə məlumata rast gəlinir. Məhəmməd Fazil xanın "Əncümən-e Xaqan" (1819) və Əbdürrəzzaq bəy Dünbülinin "Nigaristan-e Dara" (1826) təzkirələri Qacarlar xanədanının şairləri haqqında soraq verən ilk qaynaqlardan sayılır.

Qacar şahzadələrinin bədii yaradıcılığından bəhs olunan orijinal mənbələrdən biri də Seyid Əhməd Divanbəyinin "Hədiqət üş-şüəra" təzkirəsidir.

Qacarlar dövrünün görkəmli ictimai-siyasi xadimi, pedaqoq və tarixçisi R. Hidayət 1867-ci ildə tamamladığı və farsdilli şairlər haqqında sonuncu mükəmməl təzkirə sayılan "Məcməül-füsəha"da Qacar soyuna mənsub olan yetmişdən çox şairdən söhbət açır.[39]

Bunlardan başqa bəzi Qacar şahzadələrinin özləri tərəfindən də müxtəlif səbkdə təzkirələr tərtib edilmiş və bu əsərlərdə şahzadə şairlərin yaradıcılığı işıqlandırılmış, şeirlərindən örnəklər verilmişdir. Apardığımız araşdırmalar əsasında Fətəli şah Qacarın oğulları arasında 19 şahzadə şairin olduğu müəyyən edilmişdir.

Məxəzlərdə Fətəli şahın 260 övladından təqribən 48-nin qız olduğunu qeyd edirlər. Onun qız övladları arasında da istedadlı şairlər olmuşdur. Şahzadə Mahmud Mirzə Qacar 1825-ci ildə qələmə aldığı "Nüqli-məclis" təzkirəsinin birinci fəslində Fətəli şahın şair qızlarından bəhs edir.

Ə. M. Səlimi özünün üç cildlik "Zənani-soxənvər" ("Şair qadınlar") əsərində Fətəli şahın şairə hərəmləri ilə yanaşı, qız övladları

---

[37] Берже, А. П. Фетх-Али-шах и его дети (Исторический очерк) // Русская старина: 1886,- № 6. - s. 554-555; Кузнецова, Н. А. Политическое и социально-экономическое Ирана в конце XVIII-первой половине XIX в. – Очерки новой истории Ирана (XIX - начало XX в.). Москва:Наука,- 1978.- 265 с., с. 16

[38] Çingizoğlu, Ə. Qacar və Qacarlar kəndi. Bakı: Şuşa,- 2008.- 334 s., s. 44

[39] هدایت، رضا قلی خان. مجمع‌الفصحا. در دو جلد. تهران: انتشارات امیرکبیر. 1380. ج 1.

haqqında da məlumat verir. Mənbələrdə şairələr sırasında adları çəkilən şahzadə xanımlardan ən məşhuru Fətəli şahın sevimli qızı "Ziyaüssəltənə" ləqəbi daşıyan Şahbəyim xanım idi. O, "Ziya" təxəllüsü ilə şeirlər yazırdı.

Qacarlar dövrünün istedadlı qadın şairlərindən biri də əsl adı Hüsnicahan xanım olan Valiyə Qacar olmuşdur. Valiyə Qacarın şeir divanının əlyazması İran Məclis kitabxanasında saxlanılır.

Adlarını sadaladığımız şairələrdən başqa təzkirələrdə Fətəli şahın Cahan xanım, Təyyibə xanım, Sahibə xanım, Mahitaban xanım adlı qızları, həmçinin şahzadə Abbas Mirzə Naibüssəltənənin qızı Fəxrüddövlə xanım, Seyfəlmüluk Mirzə Qacarın qızı Əsmət Qacar, Nasirəddin şahın qızları Fəxrüddövlə xanım və Fəxrülmülük xanım, Fətəli şahın nəvələri Cahan Qacar və Mələk xanım, Fətəli şahın nəticəsi Fəslibahar xanım Qacar xanədanının şair xanımları kimi yad edilmişlər.

Bu paraqrafın üçüncü bəndi "**Qacar sülaləsinin digər şahzadə şairləri**" adlanır. Burada Fətəli şahın nəvə-nəticələri olan digər Qacar şahzadələrindən bəhs edilir.

Fətəli şahdan sonra ən tanınmış Qacar şairi, sülalənin dördüncü hökmdarı Nasirəddin şah Qacar (1831-1896) olmuşdur. Yarım əsrlik bir dövrdə (1896 -1848) hakimiyyətdə olan Nasirəddin şah həm də xoş təbli və incə zövqlü şair olmuş, "Nasir" təxəllüsü ilə qəlbəyatan qəsidə, qəzəl, rübai və qitələr yazmışdır. Onun da öz sələfi Fətəli şah kimi şeir divanı vardır.

Qacarlar sülaləsinin şöhrətli şairlərindən biri də İrəc Mirzə (1873-1926) idi. İrəc Mirzə İranda uşaqlara aid şeirlər yazan ilk şairlərdəndir. Onun divanında gəncləri, xüsusən yeniyetmə oğlanları elm, təhsil almağa, asudə vaxtlarını boş keçirməməyə, pis vərdişlərdən uzaq durmağa səsləyən onlarla didaktik mövzuda yazılmış şeirə rast gəlmək olar.

Mənbələrdə digər şahzadə şairlərin də adlarına rast gəlinir, təəssüf ki, tədqiqatın həcmi onların hamısının yaradıcılığını işıqlandırmağa imkan vermir.

Dissertasiya işinin III fəslinin ikinci paraqrafı "**Qacar sülaləsinə mənsub ədiblər və onların ədəbiyyata gətirdikləri**

**yeniliklər**” adlanır. Qacarlar sülaləsinə mənsub çoxsaylı şairlərlə yanaşı ədiblər də XIX yüzilliyin ədəbi mühitinin əsas təmsilçiləridir.

Qacar şahzadələrinin ədəbi irsi daha çox dövrün tarixi və müəyyən mənada da ictimai-siyasi mənzərəsini işıqlandıran təzkirələr və salnamələrdə əks olunmuşdur. Özləri də Qacar soyundan olan bu şahzadələrin yazdıqları əsərlər əsasən xanədanın tarixi mənşəyinin, dövrün tanınmış dövlət adamlarının siyasi fəaliyyətinin, İran və Qafqaz tarixi ilə bağlı bir çox siyasi olayların öyrənilməsində mühüm məxəzlərdir.

Qacar şahzadələrinin qələmə aldığı əsərlər içərisində Mahmud Mirzənin "Tarixe-Sahibqrani" , "Mərate-Mohəmmədi" və "Səfinət ül-Mahmud", Cahangir Mirzənin "Tarixe-nou", Bəhmən Mirzənin "Təzkireyi-Mohəmmədşahi" və "Şükrnameyi-şahənşahi", Fərhad Mirzə Mötəmədüddövlənin "Came-cəm", "Səfərnamə" və "Münşəaat", Rzaqulu Mirzə Naibüləyalənin "Səfərnamə", Cəlaləddin Mirzənin "Nameye-Xosrovan", Əhməd Mirzə İzədüddövlənin "Tarixe-İzədi", Əliqulu Mirzənin "İksir ət-təvarix", Nadir Mirzənin "Tarix və coğrafiyaye-dar üs-səltənəye-Təbriz", İmamqulu Mirzənin "Nəsəbnameye-ile-Qacar" əsərləri tarixi əhəmiyyətə malik məxəzlərdir.

Qacar şahzadələri tarixi və bədii əsərlərlə yanaşı dövrün ədəbi-mədəni mənzərəsini əks etdirən təzkirələr yazmaqla da məşğul olmuşlar. Belə ki, XIX yüzillikdə şahzadələr tərəfindən 20-dən artıq müxtəlif səpkidə təzkirələr qələmə alınmış, qədim şairlərlə yanaşı, çağdaş şairlərin də yaradıcılığı işıqlandırılmışdr.[40]

---

[40] Əqiq G. Azərbaycan təzkirələri Qacarlar dövründə // Şah İsmayıl Səfəvinin anadan olmasının 530 illik yubileyinə həsr olunmuş "Xətainin qılıncı və qələmi" respublika konfransının materialları. // AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. – Bakı: Elm və təhsil, 23 noyabr, 2017. s. 165-169;
Aqiq G. Literary chronicles of the Qajars' epoch // 14th International Conference on Social sciences. Conference proceedings, published by EUSER, Frankfurt, 2-3 march 2018. // European Journal of Social Sciences Education and Research, 2018, Vol 12, №1, p. 184-187

Vəliəhd Abbas Mirzə Qacarın on beşinci oğlu şahzadə Fərhad Mirzə Qacar (1818-1888) bir çox əsərlər, o cümlədən səfərnamələr müəllifidir. O, 1875-1876-cı illərdə Məkkə səfəri zamanı Tiflisdə olmuş və böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə ilə görüşmüşdür. Bu görüş haqqında xoş təəsüratlarını Fərhad Mirzə "Səfərnamə"sində bölüşmüşdür.[41] Əsər həm İran, həm də Azərbaycan, bütövlükdə Qafqazın tarix və coğrafiyasına aid qiymətli məlumatlarla zəngindir. Müəllif əsərində müxtəlif tarixi-siyasi hadisələrdən, o cümlədən Ağa Məhəmməd şahın qalibiyyət yürüşlərindən, İran-Rusiya müharibələrindən, Gülüstan və Tükmənçay sülh müqavilələrindən də bəhs edir.[42]

Qacar sülaləsinə mənsub olan görkəmli şəxsiyyətlərin yaradıcılığının tədqiqi nəticəsində belə qənaətə gəlmək olar ki, həm istedadlı qələm sahibi olan şahzadələr, həm də nəslin sonrakı davamçıları XIX yüzillik fars nəsrinin inkişafında mühüm rol oynamışlar. Bu ədiblərdən bəziləri qələmə aldıqları əsərləri ilə bu dövrün ədəbiyyatında bir sıra yeniliklərə imza atmışlar. Qacar xanədanına mənsub Məhəmmədbağır Mirzə Xosrovi Kirmanşahi (1850-1919) 1909-cu ildə qələmə aldığı "Şəms və Tuğra" romanı ilə fars nəsrində tarixi roman janrının əsasını qoymuşdur.[43]

Qacar sülaləsinin dördüncü qüdrətli şahı, əlli ilədək hökmdarlıq edən Nasirəddin şah Qacar (1831-1896) həm də ədəbi fəaliyyətlə məşğul olmuşdur. O, 1874-cü ildə qələmə aldığı "پیر و جوان" ("Qoca və cavan") hekayəsi ilə fars hekayə janrınıın və realist nəsrinin banisi hesab edilir. Onun səfərnamələri, xüsusən "*Avropaya səyahətləri ilə bağlı qələmə aldığı üç səfərnaməsi həm də İran*

---

[41] Axundov, M. F. Əsərləri: [Üç cilddə] / M.F. Axundov. / Tərtib ed.: H. Məmmədzadə, farscadan tərc. ed.: M. Mübariz. – Bakı: Elm, – c.3. – 1988.– 388 s., s. 263

[42] Fərhad Mirzə Qacar. Səfərnamə. / Fars dilindən tərc. ed.: T. Həsənzadə.- Bakı: Elm və təhsil.-2017.- 426 s.

[43] Agig G. Kaçarlar döneminde şiir ve nesirin gelişmesi // "Atlas" İnternational Journal Refereed on Social Sciences. // 2020,Vol:6, İssue:34, p. 870-880.

*tarixşünaslığında qərb ölkələrinə aid olan qiymətli coğrafi-tarixi məxəzlərdir”.*[44]

Əgər poeziyada ədəbi qayıdış ənənələrinin ən yüksək inkişaf mərhələsi Fətəli şahın hakimiyyət illəri (XIX yüzilliyin birinci yarısı) hesab olunurdusa, nəsr sahəsində sadə və rəvan üslub məhz Nasirəddin şahın səfərnamələri və onun zamanında (XIX yüzilliyin ikinci yarısı) yaşayan ədiblərin yaradıcılığı sayəsində formalaşmışdı.

**“Fətəli şah Qacarın poetik irsi və şahzadə şairlər”** adlı dissertasiya işindən əldə olunan elmi nəticələr aşağıdakılardır:

- Qacar sülaləsinin ikinci hökmdarı Fətəli şah Qacarın (hak. il. 1797-834) fars dilində şeir toplusu “Divani-Xaqan” əlyazma nüsxələri əsasında ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir.
- Fətəli şah Qacarın divanının İranın müxtəlif kitabxanalarında saxlanılan əlyazmaları üzərində apardığımız araşdırmalar nəticəsində onun fars dili ilə bərabər Azərbaycan türkcəsində yazdığı şeirləri də aşkar edilmiş və transfonoliterasiya edilərək tədqiqata cəlb edilmişdir.
- Fətəli şahın dövründə Qacarlar sarayında “Əncüməni-Xaqan” adlı ədəbi məclis fəaliyyət göstərmiş, Səba Kaşani, Nişat İsfahani və başqaları bu məclisin ən fəal üzvləri olmuşlar. *“Əncümən-i Xaqan” dövrün ən böyük şairlər yığıncağına çevrilmiş, cəmiyyətin ədəbi zövq və təfəkkürünün formalaşmasında mühüm rol oynamışdır.*[45]
- Qacarlar dövründə poeziyada əsasən klassik ədəbi ənənələrə əsaslanan janrlar hakim olmuş, şairlər xüsusilə Qəznəvilər və Səlcuqilərin saray ədəbiyyatının təsiri altında yazıb yaratmışlar. Fətəli şahın zamanında başlayan özlərindən əvvəlki ustad şairlərin ədəbi təcrübəsindən bəhrələnmə və

[44] امانت، عباس. قبلة عالم: ناصرالدين شاه قاجار و پادشاهي ايران. (1313-1247). تهران: انتشارات كارنامه. 1393، ص 98

[45] Əqiq G. Fətəli şah Qacar və klassik poeziya ənənələri. // “Azərbaycan ədəbiyyatşünaslığı” elmi jurnalı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, - Bakı: -2019.- № 1. s. 83-88

təqlidçilik ənənələri sonrakı Qacar hökmdarlarının da dövründə davam etmişdir. Bu dövrün şairlərinin bədii irsinin təhlilindən bu nəticəyə gəlmək olar ki, daha çox təqlid və nəzirəçilik ənənələrindən bəhrələnərək müxtəlif janrlarda fərqli sənətkarların yaradıcılığına müraciət etmişlər. Belə ki, *"Qacarlar dövrünün şairləri qəsidə yazmaqda daha çox Ənvəri, Fərruxi və Xaqani, qəzəl yazmaqda Sədi və Hafiz, məsnəvi sənətində Firdovsi və Nizami, qitə və müsəmmət janrlarında Mənuçehri, rübai janrında Xəyyamın yolu ilə getmişlər."*[46]

- Qacarlar dövründə poeziyada şairlərin yaradıcılığında məhəbbət lirikası üstünlük təşkil etmiş, klassik Şərq poeziyasına xas olan ənənəvi eşq mövzuları aparıcı mövqe tutmuşdur. Bu dövrün əsas poeziya üslubu isə Xorasan və İraq üslubları olmuşdur.
- Qacarlar dövründə cəmiyyətdə insanların şüuruna hakim kəsilmiş dini inanclar şairlərin də yaradıcılığında əks olunmuş, *Səfəvilər dövründən bəri inkişaf etməkdə olan dini-mistik şeirlər, mərsiyə ədəbiyyatı poeziyanın aparıcı istiqamətlərindən biri olmuşdur*.[47]
- Orta əsr Şərq ədəbiyyatının əsas istiqamətlərindən olan təsəvvüf Qacarlar dövründə də öz inkişafından geri qalmamışdır. Bu dövrdə yaşayan bir çox şairlər, o cümlədən Nişat İsfahani, Vüsal Şirazi, Füruği Bəstami, Mirzə Həbib Xorasani, Mahmud xan Məlikəşşüəra öz yaradıcılıqlarında dini-fəlsəfi mövzulara yer vermiş, ilahi eşqi tərənnüm edən şeirlər yazmışlar.

---

[46] Əqiq G. Fətəli şah Qacarın dövründə Qəznəvilər və Səlcuqilərin saray ədəbiyyatı ənənələrinin təcəssümü // "Azərbaycan ədəbiyyatşünaslığı" elmi jurnalı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və Təhsil, -2020, № 1, s. 62-68

[47] Əqiq G. Qacarlar dövründə poeziyada dini meyllər. // "Gənc tədqiqatçı" elmi-praktiki jurnalı. AMEA Gənc Alim və Mütəxəssislər Şurası,  - Bakı: Elm, -2019. - № 2 (V cild). - s. 185-191

- Fətəli şahın böyük hərəmxanası olmuş, onun qız övladları və xanımları arasından da şairlər çıxmışdır. Onun tanınmış zadəgan nəslindən olan həyat yoldaşlarından biri də Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabacı ləqəbli Ağabəyim ağa Cavanşir (1780-1832) olmuş, "Tuti" təxəllüsü ilə şeirlər söyləmişdir.[48] Qaynaqlarda şairə olan digər saray qadınlarından Tavus xanım Tacüddövlə, Sünbülbacı, Haciyə xanım, Dilşad xatun və başqalarının adları çəkilir.
- Qacarlar dövründə onlara qədər tərəssül (epistolyar) üslubunda inkişaf edən, təmtəraqlı və yeknəsəq tərzə malik fars nəsri sadələşdirilmiş, bu dövrün Qaimməqam Fərahani (1779-1835), Məhəmmədhəsən xan Etimadüssəltənə (1843-1896) kimi novatar yazarlarının XIX yüzillkdə ədəbi dilin formalaşmasında mühüm xidmətləri olmuşdur.
- Qacar şahzadələri nəsr sahəsində də ədəbi fəaliyyətlə məşğul olmuş, Qacar elinin tarixi, coğrafiyası, dövrün ictimai-siyasi olayları və İran və Qafqaz ölkələrinin tarixi ilə bağlı mühüm məlumatları əks etdirən dəyərli tarixi əsərlərlə yanaşı dövrün ədəbi-mədəni mənzərəsini işıqlandıran bioqrafik təzkirələr və tarixi əsərlər yazmışlar.[49]
- Qacar şahzadələri farsdilli nəsrin tarixində bir sıra yeniliklərə imza atmış, şahzadə ədiblər tərəfindən fars ədəbiyyatında tarixi roman janrının və realist nəsrin əsası qoyulmuşdur.
- Baxmayaraq ki, bu dövrün mədəni-ədəbi inkişaf prosesini saray mühitindən kənarda təsəvvür etmək mümkün deyil, XIX yüzillik farsdilli poeziyanın inkişafında tərəqqi və yüksəliş dövrü kimi səciyyələnir. Qacar şahzadələri yaratdıqları əsərləri

---

[48] Əqiq G. Qacarlar sarayının qadın şairləri-Ağabəyim ağa Cavanşir // "Filologiya və sənətşünaslıq" elmi jurnalı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. – Bakı:Elm və təhsil, -2020,- № 2, s. 61-68

[49] Əqiq G. Qacarlar dövründə nəsrin inkişafı və bu dövrün tarixi-ədəbi mənzərəsi // "Filologiya məsələləri" elmi jurnalı. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Elm və Təhsil, -2019, - № 11, s. 317-324

ilə yeni bir üslub və məktəb yaratmaq deyil, ədəbi mühitdə Səfəvilərin süqutundan bəri hökm sürən tənəzzül prosesini durdurmaq və klassik poeziya ənənələrini yenidən dirçəltmək məqsədinə xidmət etmişlər.

- Qacarlar dövrünün poeziyası XIX yüzilliyin başlanğıcında daha çox klassik ədəbi ənənələrə əsaslanaraq yeni məna və məzmun kəsb etməmiş, lakin əsrin sonlarına doğru poeziya meydanına mütərəqqi fikirli şair və ədiblər qədəm qoymuş, Yəğma Cəndəqi, Mirzə Ağa xan Kirmani, Ədibülməmalik Fərahani, İrəc Mirzə, Arif Qəzvini, Məlikəşşüəra Bahar kimi şairlər öz yaradıcılığında xurafat və istibdada qarşı çıxmışlar. Məhz onların yaradıcılığı ədəbiyyatın sonrakı inkişaf mərhələlərində yenilikçilik tərəfdarı olan şairlər üçün stimul və mühüm ədəbi proseslərin yaranmasına zəmin olmuş, xüsuisilə Məşrutə dövründə həm nəsrin, hən də nəzmin inkişafına təkan vermişdir.
- Qacarlar zamanında anadilli ədəbiyyatımız da öz inkişafına davam etmiş, bu dövrdə yaşayan, Qacar sarayı ilə bağlı olan və öz yaradıcılıqları ilə sözügedən dövrün ədəbi mühitinin zənginləşməsinə xidmət edən şair və ədiblərə rast gəlinir ki, onların çoxunun yaradıcılığı hələ Azərbaycan ədəbiyyatşünaslığında araşdırılmamış və ya qismən araşdırılmışdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində əks olunmuşdur:**


1. Qacarlar dövründə Təbriz şəhərində ədəbi-mədəni tərəqqi // International Youth Forum. Integration processes of the world science in the 21st century. Book of Abstracts. Ganja, Azerbaijan, 10-14 October, 2016. 490 p., s. 453-456.
2. Azərbaycan təzkirələri Qacarlar dövründə // Şah İsmayıl Səfəvinin anadan olmasının 530 illik yubileyinə həsr

olunmuş “Xətainin qılıncı və qələmi” respublika konfransı materialları. // AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Bakı: Elm və təhsil, 23 noyabr, 2017, s. 165-169

3. Qacarlar sülaləsi və poeziya sənəti // “Filologiya məsələləri” elmi jurnalı, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. - Bakı: Elm və Təhsil, 2017, №20, s. 374-381
4. XIX əsr fars ədəbiyyatının inkişafında Fətəli şah Qacarın rolu // Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş **“**Şərqşünaslığın aktual problemləri” respublika konfransının materialları. Bakı Dövlət Universiteti. Bakı: Elm, 27-28 dekabr, 2017. s. 138-140
5. Fətəli şah Qacar- şair-hökmdar // “Risalə” Elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. - Bakı: Elm və təhsil, 2018, №14, s. 7-12.
6. Literary chronicles of the Qajars’ epoch // 14th International Conference on Social sciences. Conference proceedings, published by EUSER, Frankfurt, 2-3 march 2018. // European Journal of Social Sciences Education and Research, 2018, Vol 12, №1, p. 184-187
7. Fatali shah Qajar’s poetic heritage // Literature in the context of culture. Oles Honchora Dnipro National University. Киев, 2018, 171 p., p. 96-101
8. Azərbaycan Xalq Cümhuriyyətinin XX yüzillikdə İran ədəbi-mədəni mühitinə təsiri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” IX Beynəlxalq elmi konfransın materialları, Bakı Slavyan Universiteti. 3-4 may 2018, Bakı, s. 99-101
9. Fətəli şah Qacar və Hafiz məktəbi / فنحعلی شاه قاجار و مکتب حافظ سیزدهمین گردهمایی بین المللی انجمن ترویج زبان و ادب فارسی دانشگاه شیراز. جمهوری آسلامی ایران. 20-22 "یادروز حافظ" // مهرماه 1397 ص 4001-4008 // Hafiz Şiraziyə həsr olunmuş

“Fars dili və ədəbiyyatı” Cəmiyyəti və Şiraz Universitetinin birgə keçirdiyi “Hafizin anım günü” adlı 13-cü Beynəlxalq elmi konfransın materialları. Şiraz Universitetinin nəşriyyatı, Şiraz, İran İslam Respublikası. // 10-12 oktyabr, 2018. s. 198.

10. Xəyyam rübailərinin Fətəli şah Qacarın bədii irsinə təsiri // Ömər Xəyyamın 970 illiyinə həsr olunmuş “Xalqları qovuşduran Xəyyam sözü” adlı Beynəlxalq Elmi konfransın materialları.// AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi. Bakı, Elm və təhsil, 15-16 noyabr, 2018. s. 213-216
11. M. Ə. Rəsulzadənin İranda ictimai-siyasi fəaliyyəti // Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu, Türk Dünyası Dövlətçilik İrsi” adlı I Beynəlxalq Ağsu Simpoziumunun materialları. // “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Gürcüstan Qafqaz İrs Araşdırma İnstitutu və Odlar Yurdu Universiteti. Ağsu, Azərbaycan. 9-10 noyabr 2018. Bakı, Elm və təhsil, 230 s., s.75-83
12. Qacar sülaləsinin yazarları və şairləri və onların ədəbiyyata gətirdikləri yeniliklər // Al-Farabi 5-ci Beynəlxalq Sosial Elmlər konfransının materialları.// Bakı, 1-4 avqust, 2019. Al-Farabi Yayın Evi, s. 109-111
13. Fətəli şah Qacar və klassik poeziya ənənələri // “Azərbaycan ədəbiyyatşünaslığı” elmi jurnalı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. // Bakı: Elm və Təhsil, 2019, № 1, s. 83-89
14. Qacarlar dövründə nəsrin inkişafı və bu dövrün tarixi-ədəbi mənzərəsi // “Filologiya məsələləri” elmi jurnalı. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. - Bakı: Elm və Təhsil, 2019, № 11, s. 317-324
15. Qacarlar sülaləsi dövründə poeziya və bazgəşt cərəyanı // “Əlyazmalar yanmır” elmi jurnalı. AMEA Məhəmməd

Füzuli adına Əlyazmalar İnstitutu // Bakı: Elm və Təhsil, 2019, № 2 (9),  s. 97-106
16. Fətəli şah Qacarın “Məcnuna tənə” məsnəvisi Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasının ənənələri kontekstində // “Risalə” elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyi. –Bakı: Elm və təhsil. -2019, № 2 (17), s. 71-81
17. Qacarlar dövründə poeziyada dini meyllər // “Gənc tədqiqatçı” elmi jurnalı. AMEA Gənc Alim və Mütəxəssislər Şurası. - Bakı: Elm, 2019, № 2 (5), s. 185-191
18. Fətəli şah Qacarın dövründə Qəznəvilər və Səlcuqilərin saray ədəbiyyatı ənənələrinin təcəssümü // “Azərbaycan ədəbiyyatşünaslığı” elmi jurnalı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və Təhsil, 2020, № 1, s. 62-68
19. Şərq poeziyasında saqinamə janrı və Fətəli şah Qacarın saqinamələri // “Risalə” Elmi araşdırmalar toplusu. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi. - Bakı: Elm və təhsil, 2020,  №19 (2), 240 s, s. 31-42.
20. Qacarlar dövründə rus işğalının poeziyada inikası // Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80-ci ildönümünə həsr olunmuş “Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri” adlı Beynəlxalq elmi konfransın materialları.  AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.  - 23-25 dekabr, 2020. Bakı: Elm və təhsil, 388 s., s. 47-48
21. Kaçarlar döneminde şiir ve nesirin gelişmesi // “Atlas” International Journal Refereed on Social Sciences. - Ankara, 2020,Vol:6, İssue:34, p. 870-880.
22. Qacarlar sarayının qadın şairləri-Ağabəyim ağa Cavanşir // “Filologiya və sənətşünaslıq” elmi jurnalı. AMEA

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və təhsil. 2020, № 2, s. 61-68
23. Rusiya-İran müharibələrinin bədii ədəbiyyatda əks olunması //14. Uluslararası Türk kültürü, sanatı ve kültürel mirası koruma sempozyumu //sanat etkinlikleri. “2020 UNESCO Bilge Tonyukuk yılı armağanı” // 02-04 Aralık 2020, Konya: Aydın Adnan Menderes Üniversitesi Yayınları, s. 335-340
24. Azerbaijani Turkish language during the Qajar epoch (Qacarlar dövründə Azərbaycan türkcəsi) // «Вчені записки» Таврийского Національного Університету імені В.І. Вернадского. Серія: Філологія. Журналістика. Научный журнал. // 2021, Volume 32 (71), № 4, Частина 3, p. 39-45.

Dissertasiyanın müdafiəsi 28 oktyabr 2021-ci il tarixində saat 14:00 da AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31- Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh. İstiqlaliyyət küçəsi 53. AZ 1001. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.09.2021

Kağızın formatı: 60x84 16/1

Həcm: 47 670 işarə

Tiraj: 100 nüsxə